# Dövlət Aqrar Ticarət Şirkətinin Regional Mətbəx Festivalında iştirakı barədə məlumat

Dövlət Aqrar Ticarət Şirkəti

27-28 İYUL 2019 | Dövlət Aqrar Ticarət Şirkəti | Quba




Azərbaycanda turizmin əsas istiqamətlərindən biri sayılan qastro-turizmin inkişafı , təbliği məqsədilə 27-28 iyul tarixlərində Quba rayonunda Regional Mətbəx Festivalı keçirilib.

Festival müddəti ərzində Dövlət Aqrar Ticarət Şirkəti «Kənddən Şəhərə» stendi ilə çıxış etmişdir. Stenddə şirkətin «AFAQ», «Kənddən Şəhərə» və «Şəhərdən Kəndə» layihələrinin təqdimatı olmuş və maraqlanan hər bir kəsə layihələr barədə ətraflı məlumat verilmişdir. Eyni zamanda layihələr haqqında maarifləndirici broşurlar, flayerlər paylanmışdır.

Bundan başqa şirkətin stendində «Kənddən Şəhərə» brendi altında qablaşdırılan məhsulların (düyü, noxud, Zaqatala çayı, meyvə quruları, bal çeşidləri,) satışı həyata keçirilmişdir. Ümumilikdə stendi 100-dən çox festival iştirakçısı ziyarət etmişdir.

Regional Mətbəx Festivalı Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi və Quba Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunmuşdur.




Festivalın təşkilatçılığı Xaçmaz Regional Mədəniyyət İdarəsi və Quba Destinasiya Menecmenti Təşkilatı tərəfindən həyata keçirilib. Festivalına Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi və Quba Rayon İcra Hakimiyyətinin rəhbərliyi, diplomatlar, eləcə də yerli və xarici turistlər qatılıb.

İki gün davam edən festivalın açılış mərasimi iyulun 27-də şəhərin Nizami Gəncəvi adına istirahət parkında keçirilib. Festival iştirakçıları əvvəlcə “Mətbəx nümunələri”, “Dadma və məhsul ərazisi” və “Yerli kənd təsərrüfatı məhsullarının satışı” adlı zonalarla tanış olublar.







